Öyrənmişdim ki, paytaxtın 220 saylı orta məktəb-liseyi Amerika məktəblərinin biri ilə uzun müddətdir əməkdaşlıq edir. Hətta bu məktəb amerikanlarla şagird - müəllim mübadiləsi də aparır. Bu günlərdə həmin məktəbdə oldum. Şagirdl və müəllimlərlə görüşüb - söhbətləşdim, fikir mübadiləsi apardım. Məktəbin direktoru Almaz Əsgərova rayon təhsil şöbəsinə getdiyindən, məsləhət gördülər ki, suallarıma tam dolğunluğu ilə cavab almaqdan ötrü onu gözləyim. Belə də etdim.

# BİZİ KƏDƏR BİRLƏŞDİRDİ, YAXUD UŞAQLARIN GÖZ YAŞLARI



Çox çəkmədi ki, Almaz xanım gəlib çıxdı.

İlk əvvəl Almaz xanımdan özü barədə məlumat verməsini xahiş etdim. Söylədi ki, 1952-ci ildə Cəbrayıl şəhərində, sadə zəhmətkeş bir ailədə dünyaya göz açıb. Cəbrayıldakı Qorki adına şəhər orta məktəbini bitirdikdən sonra, Bakı Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunub. Universiteti bitirdikdən sonra müəllim işləyib.

1988-ci ildən 220 saylı məktəbdə müəllimə kimi fəaliyyətə başlayan Almaz Əsgərova, 1994-cü ildən məktəb kollektivi tərəfindən seçki yolu ilə direktor vəzifəsinə təyin edilib.

ABŞ-ın Florida ştatında yerləşən məktəblə şagird - məllim mübadiləsi barədə danışmasını xahiş etdim Almaz müəllimə aşağıdakıları söylədi:

- 2001-ci ildən başlayaraq, ABŞ Departamentinin maliyyələşdirdiyi "Proyekt Harmoni-ya" təşkilatı ilə əməkdaşlıq edir. Məhz bu əlaqələrin nəticəsində məktəbimiz bir sıra beynəlxalq layihələrin iştirakçısına çevrilərək, böyük müvəffəqiyyətlərə imza atmışdır.

2003-cü ildə "Proyekt Harmoniya" təşkilatı ilk dəfə olaraq, şagird - müəllim mübadiləsi proqramını həyata keçirməyə qərar verdi. Proqramın həyata keçirilməsi üçün bu təşkilat Azərbaycanda birgə fəaliyyət göstərdiyi 40 məktəb içərisindən məhz bizim məktəbi seçdi. Mübadilə proqramı müvəffəqiyyətlə həyata keçirildi.Həmin ilin fevral-mart aylarında məktəbimizdən 10 şagird və 2 müəllim proqramın tələblərinə uyğun olaraq, Amerikada oldu. Mart - aprel aylarında isə məktəbimiz ABŞ - ın Florida ştatından 10 nəfər şagirdi və 2 müəllimi Bakıda qəbul etdi, iki aydan çox çəkmiş bu qarşılıqlı əməkdaşlıq ölkələrimiz arasında canlı körpü yaratdı. İki ölkənin 14-17 yaşlı vətəndaşları üçün bir - biri ilə yaxın ünsiyyət qurmağa, qarşılıqlı dostluq əlaqələrini möhkəmlətməyə səbəb oldu.

Amerika Birləşmiş Ştatları öz inkişaf səviyyəsinə görə azərbaycanlı şagirdləri heyrətləndirdiyi kimi, Azərbaycan da amerikalıları dərin məlumatlı, bilikli və yüksək insani keyfiyyətlərə malik şagirdləri, qonaqpərvərliyi, səmimiyyəti, təkrarolunmaz memarlıq abidələri, qədimliyi, füsunkar təbiəti ilə heyran etdi. Biz amerikalı qonaqları 20 ilə yaxın bir müddətdə Azərbaycanın inkişafına mane olan, bitməyən Qarabağ savaşının bugünkü reallıqları ilə, bu müharibənin nəticəsi olaraq öz yurd-yuvalarından qovularaq qaçqın həyatı yaşamağa məcbur edilmiş bir milyondan çox insanın acı taleyi ilə tanış etməyi də qərara aldıq.

Bunun üçün qonaqlarımızı Sabirabadda yerləşən qaçqın düşərgələrinin birinə apardıq. Soyuq, yağışlı bir payız günündə amerikalı uşaqlar bizim şagirdlərə qoşularaq, avtobusla "Şəhriyar" çadır şəhərciyinə yollandılar. Amerikalı şagird və müəllim heyətinin qaçqın düşərgəsində gördükləri onları dəhşətə gətirdi. Erməni təcavüzkarlarının törətdikləri ağlasığmaz faciənin nəticələrini öz gözləri ilə gördülər.

Minimum yaşayış şəraiti olmayan sığınacaqlar, illərlə bu həyat şəraitindən bezmiş insanlar və nəhayət, istedadlı, qabiliyyətli, bilikli və bacarıqlı, lakin olduqca kasıb, imkansız uşaqlar...

Bu uşaqlar yaşadıqları qısa bir zaman kəsiyində nələr görməmiş, nələrin şahidi olmamışlar...Onlar hər dəfə beynəlxalq təskilatların və ya nümayəndəliklərin növbəti hesabat ərəfəsi buraya gələrək qaçqınlara:"darıxmağa ehtiyac yoxdur, çox tez bir zamanda torpaqlarınız işğalçı ermənilərdən təmizlənəcək, hamınız öz evlərinizə qayıdacaqsınız", - dəmələrinə baxmayaraq, illərdir ki, yarıac - yarıtox bu palçıq və çirkabın içərisində çapalaya - çapalaya qalıblar. Onlar üçün adiləşmiş bu zülmətin sonunda bir işıq közərir. Bu işıq sabaha inam işığıdır - yerinə, yurduna, torpağına qayıtmaq işığı. Orada, bu işığın səmtində onların doğma vətənləri, doğma məktəbləri, doğma evləri qalmışdır.

Birdən Almaz müəllimə susur. Mən də nəfəsimi içimə çəkib sakitcə onun həyəcandan avazımış çöhrəsini seyr edirəm. Hiss olunur ki, bu an o, qəlbən yenidən amerikalı şagirdlərlə birlikdə soyuğun, yağışın altında, çamurın içində ayağı yalın qalaraq məcburiyyət üzündən oranı özlərinə müvəqqəti sığınacaq etmiş həmin insanların yanındadır, onların acısına acıyır.

Almaz xanım birdən susduğu kimi, birdən də sözünə davam etdi:

...Qaçqın düşərgəsinə təşkil etdiyimiz səyahətin məqsədi məhz bu həsrəti, insanların düçar olduğu bu əzab-əziyyəti qonaqlara göstərmək idi. Məqsədimiz müharibənin insanlar üçün necə bir dəhşət olduğunu onlara nümayiş etdirmək, erməni təcavüzündən qaçaraq öz ölkələrində məcburi köçkünlərə çevrilmiş bu insanların yaşadıqları şəraitin ağırlığını cəmi bir neçə saatlığa da olsa onlarla birgə yaşamaq idi. Qısa vaxtda belə həyat şəraitini müşahidə etmək məcburiyyətində qalmış amerikalı uşaqlar çaşqınlıq içərisində qalmışdılar. Onların hamısı göz yaşları içərisində boğulurdu. Dərdli-dərdli danışan köçkünləri heyrət dolu baxışlarla süzərək dinləyən əcnəbi məktəblilər bəlkə də bu an dünyada baş verən bütün müharibələrə qalib gəlib, onları təcili olaraq dayandırmaq əzmində idilər.

Bu ağır səfərdən geri dönəndən sonra biz qərara aldıq ki, qaçqın düşərgəsini seyr etmiş amerikalı və azərbaycanlı uşaqlar həmin an keçirdikləri hissləri qələmə alsınlar. Kimi bu hissləri rəsm kimi, kimi də hekayə şəklində təqdim etsin. Beləliklə, ingilis və azərbaycan dilində amerikalı və azərbaycanlı məktəblilərinin bu barədə olan yazı işlərini bir yerə toplayaraq, "UŞAQLARIN GÖZ YAŞLARI VƏ ÇƏPƏR ARXASINDAKI QAÇQIN DÜŞƏRGƏLƏRİ" adlı bir kitab nəşr etdik. Müharibələr əleyhinə uşaqlar tərəfindən yazılmış bu kitab erməni cəlladlarının soyqırımına məruz qalmış köçkün və qaçqın azərbaycanlıların el-oba, yurd, Vətən, Qarabağ dərdini dünyaya çatdırmaq üçün bir vasitədir. Bu kitab dünya uşaqlarının bütün müharibələrə etiraz səsidir, bütün dünyada insanlığa uca bir çağırışdır.

Mən ürəkdən inanmaq istərdim ki, nəşr etdiyimiz bu kitabı oxuyanlar Qarabağımızda sülhün bərqərar olmasına, minlərlə insanın öz yurd-yuvalarına qayıtmasına çalışacaq, Azərbaycanda mənfur erməni təcavüzünə son qoyulması naminə öz səsini dünya ictimaiyyətinin haqq səsinə qatacaqlar.

... Almaz xanım yenə də susmuşdu. Divardan asılmış saatın yeknəsəq taqqıltısı otağın sükutunu pozurdu. Müsahibimin gözləri yaşarmışdı. Heç kim də bilməsə mən bilirdim ki, Sabirabaddakı qaçqın düşərgəsində özlərinə sığınacaq tapmış o insanların bir çoxu Almaz xanımın qohumları, əzizləri, yaxınları idilər.

Nə yaxşı ki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının sərəncamı ilə respublika ərazisində yerləşən bütün çadır şəhərcikləri ləğv edilmiş, qaçqın həyatı yaşayan insanlar yeni və abad qəsəbələrə köçürülmüşlər..

*Fərhad BAĞIROV, Qarabağ müharibəsi veteranı*

# Təfəkkürlə təxəyyül qovuşanda

*(Əvvəli 4-cü səhifədə)*

"Ədəbiyyatşünaslığın əsasları" kitabı ali məktəblərdə dərs vəsaiti kimi geniş istifadə olunur. Anlaşıqlı bir dildə, zəngin bədii faktlara əsaslanmaqla yazılmış bu əsər hazırda ali təhsil sistemimizdə elmi-metodik təminat sahəsindəki boşluğu doldurmaq üçün vaxtında çap olunmuşdur.

Son illər araya-ərsəyə gəlməsinə böyük ehtiyac hiss olunan əsərlərdən biri uşaq ədəbiyyatı ilə bağlıdır. Professor Qara Namazovun "Azərbaycan uşaq ədəbiyyatı" adlı dərsliyindən sonra bu sahədə boşluq yaranmışdı. Rafiq Əliyevin 2002-ci ildə Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Məktəbəqədər tərbiyə və ibtidai məktəb" bölməsinin qərarı ilə çap olunmuş "Uşaq ədəbiyyatı" dərs vəsaiti dəyərli bir kitabdır.

Professor R.Əliyevin dəyərli əsərlərindən biri poema Tanrının ədəbiyyatımızda inkişafı məsələlərinə həsr olunmuşdur. Müəllif kitabda alleqorik poema, düşüncələr poeması, poema-əfsanə, poema-rəvayət, publisistik poema, kinopoema, fantastik poema tipli əsərlərə geniş təhlil verdiyi monoqrafiyası ilə özünü yetkin bir tədqiqatçı kimi təsdiq etmişdir.

Buraya qədər yazılanlar alim Rafiq Yusif oğlu Əliyevin elmi araşdırmalarından soraq verən faktlardır.

***

Yenə də təsəvvüfə üz tutaq: Ağıl məhdudluq, bağlılıqdır, qəlb isə genişlikdir. Sufizm qəib nuru və mənəviyyatla birləşməyən ağılı kor kimi tanıyır. Sufizm təlimini rəsmi İslam dini çərçivələrinə yeridə bilmiş böyük sufizm nəzəriyyəçisi Məhəmməd Qəzzali yazırdı ki, qəlbin iki pəncərəsi var: hisslər aləmi, ruhlar aləmi. Qəlb ruh ilə nəfs arasında işıqlı bir gövhərdir.

Eşq daxili işıqlandırır, qəlb duyumu ağıl və məntiqin aciz qaldığı sərhədləri aşıb, bəşər təxəyyülünün qüdrətini tarazlayır. Sufiliyə görə, insanı bütün canlı və mələklərdən üstün tutan eşq və mərifətdir. Mərifət bilikdir, onunla bağlıdır. Mərhələlərdən keçir. Eşq fəlsəfəsi isə mərifətin keyfiyyətcə yeni, son, yüksək mərhələsidir. Arif şəxsin eşqi daimi, vüsal anları keçicidir. Vüsal daimi və mümkün deyil, arzu və idealdır.

Rafiq Yusifoğlunun şeirlərini mövzu üzrə ilkin qruplaşdırma cəhdi belə nəticələndi: uşaq psixologiyası ilə səsləşən, klassik uşaq şeirləri poetikası ilə naxışlanmış əsərlər; Azərbaycan təbiətinin gözəllik və ülviyyətinin sözdə əksi olan şeirləri insan gözəlliyi və məhəbbətinin insanda-şairdə oyadıb, heyrət və intibanın ifadəsi olan poetik parçalar; həyat, kainat və insan təbiəti barədə bədii-fəlsəfi duyumların təsviri olan şeirlər... Bu şeirlər onun "Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri" "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü",Sladkiy zond", "Ayrılığın qəm hasarı" adlı kitablarında toplanmışdır. Və bu kitablardan sonuncunun mündəricəsinin zənginliyinə baxaq: Zirvəyə gedən yollar; Qızlar, məni xatırlayın, Məhəbbətin sevinc fəsli; Sevgi dalğaları; Həsrət sazağı...

Gözəllik önündə mat qalan şair üçün insan gözəlliyi, təbiət, mənəvi saflıq, gözəllik qaynaqlarıdır (Henrix Heyne özünü gözəllik ilahəsinin ayaqları altına yıxıb).

"Yurd yeri" şeirində müəllif ona ünvanlanmış bir məktubun doğurduğu təəssüratı poetizmlərdə ifadə edir. Və bu hiss-təəssüratda 'Vətən yanğısı, yurd həsrəti üstünlük təşkil edir. Son misralara fikir verin, görün şair ürəyi necə geniş və böyük imiş:

**Deyirsən: bizim dağların**
**yerini heç hara vermir,**
**Ürəyində ağrı, niskil,**
**gözlərində yaş gəlmisən.**
**Mənim şair ürəyimdə**
**ağrılar heç ara vermir,**
**Qəlbim qaçqınlar yurdudur,**
**öz yurduna xoş gəlmisən!..**

Rafiq Yusifoğlu bü gün keçmiş şagirdlərinin, ali və orta ixtisas məktəblərində mühazirələr oxuduğu tələbələrin sevimli müəllliminə çevrilib. O, bu ənənəni İ.Şıxlı, Ə.Dəmirçizadə, P.Əfəndiyev kimi müəllimlərdən miras olaraq qəbul edib. Ruhu qarşısında baş əydiyi müəllimlərdən biri dosent Əhəd Hüseynovdur. Rafiqin ötən əsrin 70-ci illərində yazıb "Azərbaycan müəllimi"ndə çap etdirdiyi şeirlərdən biri tanınmış alim-tənqidçi Əhəd Hüseynova ithaf edilib.

R.Yusifoğlu tələbəlik illərinin təəssürat və duyumlarını belə ifadə edib:

**Yarımçıq qoymazdın**
**gördüyün işi,**
**Həyatdan dərs idi həyatın bizə.**
**Ölümdən söz düşsə,**
**deyərdin, əşi,**
**Soyuqluq salmayın ürəyimizə.**

**"Qız yükü, duz yükü"**
**deyərdin hərdən,**
**Qızların güləndə qışın yaz oldu.**
**Qayğılı ürəyin dayandı birdən.**
**Sənin yeddi qızın yeddi saz oldu.**
**Həmişə həvəslə danışırdın sən**
**Heç vaxt hiss etməzdik**
**yorğunluğunu.**

**...Bizi sarsıtsa da o matəm günü.**
**Qaldı ürəklərdə müqəddəs adın.**
**Sən qürub etmədin,**
**günəş ömrünü**
**Bölüb şəfəqlərə bizə payladın.**
**Kim verə biləcək onun yerini?**
**Könlümdə bir dərin həsrət**
**yaşayır.**
**Qoru, mühazirə dəftərlərini,**
**Onun hər sətrində Əhəd yaşayır!**

Professor Rafiq Yusifoğlu həyatsevər, dili lətifəli bir insandır. O, öz hərəkətləri, söhbətləri ilə dostlarını həyata səsləyir, gözəl görən gözlərin gülməsini xoşbəxtlik sayır:

**Gözəl görəndə**
**gözlərin gülürsə,**
**Ürəyin sevgidən**
**inləyə bilirsə,**
**qulaqların**
**yarpaqların pıçıltısını,**
**ləpələrin, quşların səsini**
**dinləyə bilirsə,**
**daha nə istəyirsən?**

**Tanrı səni**
**bu dünyaya gətiribsə,**
**Gözlərindən qəflət pərdəsini**
**götürübsə,**
**Qəlbində arzu gülləri**
**bitiribsə,**
**Səni səadətə, xoşbəxtliyə**
**yetiribsə,**
**Daha nə istəyirsən?-**
**Xoşbəxtlik bu deyilmi?!**

Ömrün 60 ilini zehni əməklə, bədii yaradıcılıqla yaşayıb tarixə çevirmiş Rafiq Əliyev dövrün, zamanın hadisələrinə biganə qalmayıb. Dağlıq Qarabağ hadisələri zamanı Vətən torpağını qoruyanları "Ön cərgə" şeirində şair belə səciyyələndirib təqdim edir:

**Həmişə yolumuz dirənib dağa,**
**Göydən başımıza yağıb dolular.**
**Heç vaxt buraxmayır bizi qabağa,**
**Durub ön cərgədə cibi dolular.**

**Önların bağına axıb yaxşı su,**
**Kababın yağlısı onlara bişib.**
**Maşının yaxşısı, evin yaxşısı,**
**Tikənin yaxşısı onlara düşüb.**

**Sovrulub havaya istəyin külü,**
**Gözümüz gül açır ürək dolanda.**
**Durmuşuq kənarda boynu bükülü,**
**Həmişə olmuşuq arxa planda.**

**Varlının nə işi düşmən önündə?-**
**Çəkilib kənara, dalda yer seçib.**
**Elin dar günündə, ağır günündə**
**Arxada olanlar qabağa keçib...**

***

Dünyanın əbədi və tükənməz varı söz-poetizm və terminlər tükənməz sərvəti olan filologiya elmləri doktoru, professor Rafiq Əliyev yeni əsrin əvvəllərində də ön cərgədir. İlahi köməyin olsun!



*Şamxəlil MƏMMƏDOV, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalisti*

# Xalqımın bəstəsidi, mənimdi "Sarı gəlin"

Azərbaycanın cənub incisi Lerik dünyanı çox möcüzələri ilə heyran qoyub. Hələ xəritədə Talış dağlarının dəvə hürgücləri Lerikdən ... "addımlayıb", Astara torpağında Xəzər dənizindən su içir. Lerikdə dəmir ağacı və iqlimlərin neçə yaşıl muncuğu əsl möcüzə qatarıdır. Lerikdə insanların möcüzəli həyatı dünya alimlərinin tədqiqat mövzusuna çevrilib. 2 qitənin - Avrasiyanın uzun ömürlülər diyarı Lerik, keçmiş SSRİ-də 1960-1980-ci illərdə radio və televiziyalarda geniş təbliğ olunub. Atlantik okeanından Çin dənizinədək dünya Azərbaycanın bu yaşıl möcüzəsinin - Lerik nağılının sehrli musiqisinə dalıb. Lerikdə istedadları təbiət özü yetişdirir. Saf torpaq, saf hava, bulaq suyu - Dirilik suyu talanta yaşıl cığır açır. Cığırı sənə açdılarmı, ya özün açdınmı, get axıradək; o qədər ki o cığırı yola çevir. Dünya yarandığı gündən bu hikmətin sehrindədir. Lerik möcüzələrindən biri - rubailərdir. O rübai ki sorağı çox uzaqlardan: Ömər Xəyyamdan, Məhsəti Gəncəvidən, Nizamidən, Xaqanidən, Hafizdən, Nəsimidən, Füzulidən, Xətaidən gəlir; Lerikdə şeirin rübai növü Qəhrəmanın rübailəri kimi, ən yeni dövrünü yaşayır. Qəhrəman Əli (Əliyev) öz rübailəri ilə Azərbaycan poeziyasında yeni bir səhifə açmaq iqtidarındadır. Bu gənc şairin "Ürəyimin dünya dərdi" kitabı fikrimizin səmimiliyini sübuta yetirə bilər.

Gərək yaxşını görməyi, ona qiymət verməyi bacarasan, bu qiyməti ləngitməyəsən və biləsən ki, sən ona qiyməti vaxtında verməsən də, talant radium kimidir, o, bağlı sandıqda, polad seyfdə də özündən işıq verir. Çünki radium da, talant da Tanrıdan gəlir.

Qəhrəman Əli rübai yazmağa başlayanadək şair kimi yol gəlib; dilin, sözün hikmətindən xəbər tutub. İlk düşüncələr, ilk misralar Lerik bulaqlarının saf suyu kimi qəlbindən sürtülüb. Ağ vərəqlər üstündə ilk qara cığırlar açıb. Rübaiyə qədər gələn poetik duyğular, düşüncələr, pıçıltılar söz sərkərdələrinin divanından yeni ilham, yeni dəstək alıb. Və bir gün Qəhrəman Əli ilk rübailərini yazıb. Qəhrəman Əli özünə inanıb, qələminə inanıb və rübainin fəlsəfəsinə inanıb. Rübai öz şəkli-forması ilə mövzunu sanki özü seçir: dünya və həyat haqqında, yaradanın qüdrəti, ölüm və ölümsüzlük, insan ləyaqəti, var-dövlətə, ailəyə, dosta və dostluğa münasibət, yaxşılıq və yamanlıq, xeyir-şər və s. bu mövzunun tərkib hissəsidir. Qalır mövzunu işləmək, onu hər rübai üçün seçmək və onu şeirə - rübaiyə çevirmək. Bunlar bizim şərhimizdə olduğu kimi, informativ ardıcıllıq deyil; şair ilhamının, duyumunun bəhrəsi kimi yaranır. Rübai yazan şair söz sənətkarı olmalıdır.

O, şair kimi öz gücünü başqa janrlarda da sınamalıdır. Əlbəttə, yaradıcılığa birbaşa - ilk misradan-rübaidən də başlamaq olar. Yəni ki şeir yazmağa nədən başlamaq olar "reseptini" vermək olmaz. Amma bu, şair istedadlıdırmı? Bu şeir istedadla qələmə alınıbmı? Orijinaldırmı? Oxucuya təzə nə deyir, hansı fikri aşılayır, nəyi təqdir edir? Aktuallığı, müasirliyi bir yana, sənətkarlıq baxımından necə təsir bağışlayır? Şair və onun qələm məhsulu bu sonuncu suala cavab verməlidir.

Hər rübaidə gərək bir orijinallıq, yenilik olsun; hər rübai müstəqil bir şeir olsun gərək. "Rübai" sözünün etimologiyası - tarixi inkişaf yolu da maraqlıdır. "Rübai" sözü fars dilində formalaşana qədər Azərbaycan - türk dilində başlanğıc yolunu keçib. Rübü: üz - hərəkət edən işıq; bu işığın bütövlüyü - tamlığı: Rüb; rub- (rüb-ənd) - üz örtüyü. "Rübəru"- üz-üzə; Beləliklə, rübainin "Rü - Ru" kodu aydın olur.

Forma etibarilə rübai 4 misradan ibarətdir. İlk 4 misralı şeir isə bayatıdır; yəni ilk bayatılar olub. Bayatının 4 misralı olmaqla yanaşı, 7 hecalı özəlliyi - dəyişilməz forması var. Rübai isə 4 misra olmaqla 11, 14 hecalı - yəni daha iri həcmli, tutumlu şəkli ilə də seçilir. Bunu nəzərə almaq lazım gəlir. "Ru" (rü) koduna "bay-atı"nın da ilk kodu qoşulur və söz yaradıcılığının tələbi yeni - "uzbay-ı" - "üz-bay-i" - uz-bayatı: ürüyən, artan, inkişaf edərək məna yükünü genişləndirən bayatı belə məzmun daşıyıb.

Qəhrəman Əlinin rübailərində janrın bu vacib xüsusiyyətinə ciddi əməl olunduğunu söyləmək olar.

**Qaytar borclarını, qaytar,**
**dayanma**
**Övladlıq borcunu qaytar,**
**yubanma.**

Bu misralar yalnız zahirən sadə görünür. Məna yükü isə dərindədir. İnsan ömrü boyunca borc qaytarmalıdır. Bəs hansı borcdu bunlar? - Dünyaya gəldiyin üçün, doğulduğun üçün Tanrıya borclusan. Tanrının borcunu qaytarmaq haqqında nə düşünürsən? Minnətdaram, Tanrıya gündə min kərə şükr edirəm! - demək hələ azdır. Tanrı səni yaradarkən dedi ki, insan ol, insanların cərgəsinə qoşul, yalnız öz zəhmətinlə dolan, süfrəndə halal çörəyin olsun. Kimi isə istismar etmə, kiminsə haqqını tapdalama, çörəyini kəsmə. Çalış ki, xudbinliyi, paxıllığı, özünə yaxın buraxmayasan; Kin-küdurətlə dolub-daşmayasan; günahsız yerə qan tökməyəsən; atanın, ananın, bacı-qardaşlarının, yaxın qohumlarının, dost-tanışlarının işinə yaramağa çalış; Biliyini, zehnini zənginləşdir; çalış ki, heç yerdə heç vaxt ağa qara deməyəsən. Yaxşıya yaxşı qiymət ver ki, yaxşılığın sayı artsın, yaxşıların sırası genişlənsin və s. Bunlar sənin Tanrı qarşısında borclarındır! Gör nə qədər borcun var sənin, ey insan! Sən hələ ata-ana qarşısında ayrıca borc yükünü düşünməlisən. Sən bu borcları qaytarıb qurtara biləcəksənmi? Məgər sən əsl insan olmağa borclu deyilsənmi? - Əsl insan - yalnız xeyirxah olmalıdır.

*(Davamı 6-cı səhifədə)*

# Estoniyada Azərbaycan dilində radio proqramı yayımlanacaq

Bu ilin payızında Estoniyanın "Radio-4" kanalında Azərbaycan dilində verilişlərin yayımına başlanacaq.

Proqramın rəhbəri, Tallində eston dili müəllimi işləyən, Azərbaycan Bazar Günü məktəbinin rəhbəri ,Sənəm Əliyevanın verdiyi məlumata görə, ilk mərhələdə proqram həftədə bir dəfə yarım saat efirə çıxacaq.



S.Əliyevanın sözlərinə görə, bu proqramı açmaq təşəbbüsü ilə 2 il əvvəl müraciət olunub, Estoniya radio və televiziya şirkətinin rəhbərliyi bu il layihəni təsdiqləyib, proqramın rubrikaları da təsdiq olunub: "Bu işdə bizə Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsi yardım edib. Hazırda Azərbaycan tərəfi ilə məsləhətləşmələr aparırıq".

S. Əliyeva bildirib ki, proqramda Azərbaycana aid xəbərlər, əsasən Dağlıq Qarabağ münaqişəsi, elm, mədəniyyət, təhsil sahəsi ilə bağlı xəbərlər, Azərbaycanın görkəmli şəxsiyyətləri haqqında verilişlər, "Bu maraqlıdır. Azərbaycan haqqında faktlar", "Azərbaycanın mədəniyyət və ədəbiyyat nümayəndələri" kimi rubrikalar olacaq.

Hazırda Estoniyada 2 minə yaxın azərbaycanlının yaşadığını bildirən S. Əliyeva "Radio-4"-ün bir çox Avropa ölkələrinə yayımlandığını, geniş dinləyici auditoriyasına malik olduğunu da qeyd edib.

O, gələcəkdə bu radioda həm də eston və ingilis dillərində Azərbaycan haqqında məlumatları yaymaq arzusunun olduğunu da bildirib.